# Rəsm müsabiqəsi keçirilib

*10 saylı Ərazi Vergilər İdarəsi mövcud vergi ödəyiciləri ilə yanaşı məktəblilər—yəni gələcək vergi ödəyiciləri arasında da maarifləndirmə işi aparır. Bu məqsədlə vergi idarəsi təhsil şöbəsi ilə birlikdə rayon məktəbliləri arasında «Vergi uşaqların gözü ilə» adlı rəsm müsabiqəsi keçirmişdir.*

*Rayon təhsil şöbəsinin akt zalında müsabiqəyə yekun vurulmuşdur.*

Tədbiri 10 saylı Ərazi Vergilər İdarəsinin bölmə rəhbəri İntiqam Hidayətzadə açmışdır. İntiqam Hidayətzadə bazar iqtisadiyyatında verginin rolu barədə qısa məlumat vermiş, hər kəsin vergi qanunvericiliyindən xəbərdar olmasının vacibliyindən danışmışdır. Bölmə rəhbəri bildirmişdir ki, «Vergi uşaqlrın gözü ilə» rəsm müsabiqəsi məktəblilərə vergi anlayışının aşılanması məqsədi daşıyır. Müsabiqənin nəticələri göstərir ki, uşaqların



bu sahədə müəyyən bilikləri var. Gələcəkdə bu mövzu ilə əlaqədar inşa yazılarının da keçirilməsi nəzərdə tutulmuşdur.

Sonra rəsm müsabiqəsində fərqləndirici yer tutanlara 10 saylı Ərazi Vergilər İdarəsi tərəfindən müvafiq diplom və hədiyyələr verilmişdir.

Zarağan kənd 2 nömrəli tam orta məktəbin şagirdi Fidan Həşimli müsabiqədə 1-ci yeri, Məlikli və Kiçik Əmili kənd tam orta məktəblərinin şagirdləri Könül Tahirova və Rəsul Mahmudov 2-ci yeri, Zarağan kənd 1 və 2 nömrəli, Uludaş kənd tam orta məktəblərinin şagirdləri Aynar Əlizadə, Hümay İdrisova, Sayad Həmidova 3-cü yeri tutmuşlar.

Müsabiqədə 1-ci yeri tutan Fidan Həşimlinin rəsmi Vergilər Nazirliyinin keçirəcəyi respublika müsabiqəsində nümayiş olunacaqdır.

**«Qəbələ»**

# Körpələrin bayram sevinci

*Qəbələni laciverd gözəlliyə bürüyən iyun ayının, ilk günü bu yerlərin füsunkarlığına daha bir təravət, yeni bir bayram büsatı da əlavə etdi. Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixdə qərarlaşan 1 iyun Qəbələnin hər kəndində, hər qəsəbəsində xüsusisi təmtəraq, şövq və coşqunluqla qeyd olundu. Təbiətin harmoniyası kimi al-əlvan arzular çələnginə bürünmüş Qəbələnin minlərlə dodağı gül təbəssümlü balaları bu bayram gününü, bayram təntənəsini öz doğum günlərinin sevincləri qədər unudulmaz və yaddaşlarında silinməz iz buraxan hadisəyə çevirmişdilər.*



Yeni ünvanda fəaliyyət göstərən Zarağan kənd uşaq bağçasında da bayram şənliyi düzənlənmişdi. 1 İyun Ümumdünya Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təşkil edilən tədbir körpələri, valideyinləri və bağçanın yerləşdiyi şəhərciyin sakinlərini də cəlb etmişdi.

Məkanı balacaların könül dünyasına uyğun bir tərtibatla bəzədilmiş bayram şənliyi Azərbaycan Respublikası Dövlət Himninin səsləndirilməsi ilə başlamışdır.

2 yaşdan 5 yaşadək müxtəlif yaş qruplarını təmsil edən fidanların xorla səsləndirdikləri dövlət himni üç rəngli bayrağımızı başları üzərində tutan körpə Vətən övladlarına nə qədər yaraşırdı….

Bayram tədbirini bağcanın tərbiyəçisi Nuridə Həmidova açmışdır. O, hər gün isti nəfəsləri, xoş təbəssümləri ilə üz-üzə olduğu körpə balaları, onların valideynlərini bu əlamətdar gün münasibətilə təbrik edmişdir. Nuridə Həmidova bu xoşbəxt günləri onlara bəxş edən, uşaqların böyük dostu Prezident İlham Əliyevə, Birinci vitse- prezident Mehriban xanım Əliyevaya sonsuz minnətdarlığını bildirmişdir.

Uşaq bağçasının müdiri Dunay Səddinova çıxış edərək bu bayram şənliyinin əlamətdar olduğunu bildirmişdir. O, Zarağan kənd uşaq bağçasının müasir və yaraşıqlı binaya köçürüldüyünü qeyd edərək, göstərilən hər cür dəstəyə görə rayon icra hakimiyyətinə, onun rəhbərliyinə bağçanın kollektivi adından minnətdarlığını ifadə etmişdir.

Sonra balacaların ifasında maraqlı kompozisiya nümayiş etdirilmişdir. “Cücələrim”, “Kukla” mahnılarının xorla ifası, “Buratino” uşaq rəqs qrupunun çıxışı milli geyimli azyaşlıların təqdimatında o qədər canlı, təsirli idi ki, alqış sədalarını musiqi melodiyalarından ayırmaq olmurdu. Rəna və Jalə bacılarının rəqsləri, məşhur ”Turp nağılı”nı canlandıran Muradın, Həsənin və Ömərin uğurlu çıxışları hər kəsə xoş təəssürat bəxş edirdi.

40 uşağın adının həkk olunduğu bayram tortunun gətirilməsi isə tədbirə yeni rəng qatmışdı. Uşaqlar çay stolu ətrafında əyləşərək sevinclərini bölüşürdülər.

Zarağan kənd uşaq bağçasının yeni ünvandakı bu maraqlı tədbiri uşaqların hafizəsinə həmişəlik yazılmış olacaq, bir xatirənin təntənəsi kimi yaddaşlarında yaşayacaqdır.

**✍ Ruhəngiz XƏLİLOVA,**
**uşaq bağçasının tərbiyəçisi.**

# Tibb işçilərinin peşə bayramı

İnsan üçün qiymətli olan, lakin çox vaxt qayğısına qalmadığı ən böyük sərvət sağlamlıqdır. İnsan sağlamlığının keşiyində isə tibb işçiləri durur.

Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra onun həyata keçirdiyi sosial-mədəni tədbirlərdən biri də sağlamlığın mühafizəsi ilə bağlı idi. Bununla əlaqədar olaraq Nazirlər Şurasının 17 iyun 1918-ci il tarixli sərəncamı ilə Səhiyyə Nazirliyi təşkil olundu.

Azərbaycanda tibbin inkişafı isə daha çox yenidən dövlət müstəqilliyinin əldə edilməsi dövrü ilə bağlıdır. Bu gün respublikamızda və rayonumuzda öz müqəddəs peşəsinin sirlərinə dərindən bələd olan, insanların sağlamlığının keşiyində duran minlərlə səhiyyə işçisi vardır.

Ümummilli lider Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli Sərəncamına əsasən hər il 17 iyun ölkəmizdə tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

Bu münasibətlə “Qəbələ” qəzeti redaksiyasının kollektivi rayonumuzun bütün səhiyyə işçilərini təbrik edir, onlara uzun ömür, can sağlığı və işlərində uğurlar arzulayır.

**“Qəbələ”**

# Fikir mübadiləsi aparılıb

Avrasiya Əməkdaşlıq Fondu Niderland Xarici İşlər Nazirliyinin maliyyə dəstəyi ilə “Azərbaycanda İnsan Haqları, Demokratikləşmə və Yaxşı İdarəetmənin Təşviqi” Proqramını həyata keçirir.

Bu layihə çərçivəsində Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri, ekspert Sahib Məmmədovla Avrasiya Əməkdaşlıq Fondu arasında imzalanmış 7 mart 2017-ci il tarixli müqavilə əsasında “İctimai İştirakçılıq. Mövcud vəziyyətin öyrənilməsi və yeni təşəbbüslərin dəstəklənməsi” adlı sifariş çərçivəsində 12 may 2017-ci il tarixində Qəbələ şəhərində yerli icra hakimiyyəti, yerli özünüidarə orqanları və regionun vətəndaş cəmiyyətləri nümayənələrinin iştirakı ilə “İctimai İştirakçılıq. Yerli qərarların qəbulunda vətəndaş iştirakçılığı” mövzusunda müzakirələr keçirilmişdir.

Ekspertlər İsrail İsgəndərov və Sahib Məmmədov müzakirə üçün məruzələr etmişlər.

Ekspert İsrail İsgəndərov “İctimai İştrakçılıq haqqında. Azərbaycanda ictimai iştirakçılıq modelləri və formaları” mövzusunda çıxış etmişdir. Daha sonra yerli qərarların qəbulunda vətəndaşların iştirak imkanları ilə bağlı müzakirələr olmuşdur. Yerli icra hakimiyyəti, özünüidarəetmə orqanları, qeyri hökumət təşkilatları təmsilçiləri ictimai iştirakçılıqla bağlı mövcud olan təcrübə, həmçinin problemlər barədə mülahizələrini söyləmişlər.

Çıxışlarda əsasən təhsil, sosial təminat sistemi ilə bağlı qəbul olunmuş qərarların qəbulunda ictimaiyyətin fikirlərinin və rəylərinin öyrənilməsinin vacibliyi vurğulanmışdır.

**“Qəbələ”.**

# Muzey xəbərləri

*28 May Respublika Günü münasibətilə Qəbələ Tarix-Diyarşünaslıq Muzeyində tədbir keçirilmişdir. Əvvəlcə ”Azərbaycan 1918-20-ci illərdə” adlı sərgiyə baxılmışdır. Tədbirdə muzeyin direktoru Xalis Məmmədov 1918-ci illərin şanlı tarixi haqqında mühazirə oxumuş, Şərqdə ilk demokratik respublika olan ADR-in quruçuları, 1918-20-ci illərin siyasi tarixi haqqında ətraflı məlumat vermişdir.*

Qeyd olunmuşdur ki, 1918-ci ildə Milli Şura tərəfindən hazırlanan “İstiqlal bəyannamə”sini imzalayan 24 nəfərdən biri həmyerlimiz Şəfi bəy Rüstəmbəyli olmuşdur. O, həmçinin rus dilində nəşr olunan “Azərbaycan” qəzetinin ilk redaktoru, “Mədəniyyət haqqında qanun”un müəllifi olmuşdur. Şəfi bəy Rüstəmbəyli 1893-cü ildə səfalı kəndlərimizdən biri olan Mamaylıda dünyaya gəlmişdir. Fəxrlə deyə bilərik ki, ilk demokratik respublikanın



yaradılmasında böyük əməyi olanlardan biri də bizim həmyerlimizdir.

* * *

Son zamanlar məktəblilərin muzeyimizə vaxtaşırı gəlməsi şagirdlərdə tariximizə xüsusi maraq oyatmışdır. Muzeyin ekspozisiyası ilə tanış olan uşaqlar buradakı eksponatların tarixinə diqqət yetirərək Azərbaycan torpağının qədim ulu keçmişinə bələd olurlar. Məktəblilərin gəlişi zamanı muzeyin əməkdaşları çalışır ki, təşkil olunan ekskursiyalar uşaqlarda dərin təəssürat yaratsın.

Muzey kollektivi 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar bağça uşaqları üçün xüsusu tədbirlər hazırlamışdır. Ekskursiyalar zamanı uşaqlara bədii qiraət saatları, viktorinalar və sair təşkil olunmuşdur. Məktəblilərin vaxtaşırı muzeyə gətirilməsi işi Nicat Apayev adına 4 nömrəli şəhər tam orta məktəbdə yaxşı təşkil olunmuşdur.

* * *

5 iyun Ətraf Mühitin Mühafizəsi Günü ilə əlaqədar olaraq dəyirmi masa təşkil olunmuşdur. Tədbirdə muzeyin direktoru Xalis Məmmədov ”Ətraf mühitimizin təmizliyi sağlamlığımıza xidmət edir” mövzusunda söhbət aparmışdır. 1972-ci ildən etibarən bu əlamətdar gün dünyanın bütün ölkələri tərəfindən qeyd olunur. Hamımız bilməliyik ki, ətraf mühitin qorunması, təmizliyi gələcəyimizin, gələcək nəslin sağlamlığı deməkdir.

**✍ İlhamə SEYİDOVA**
**muzeyin elmi işçisi.**